

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 18 (21.679)

*26 yanvar 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin valisi Qurbanəli Səadət Qarabağın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin bütün sahələrdə çox yaxşı inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin ölkələrimiz, xalqlarımız və eləcə də bölgə üçün böyük önəm daşıdığını bildirdi və son illər ərzində ikitərəfli əməkdaşlığımızın inkişafının məmnunluq doğurduğunu dedi. Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin valisi Qurbanəli Səadət Qarabağın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına səfərinin və keçirəcəyi görüşlərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini əminliklə qeyd etdi.

Ölkələrimiz arasında ikitərəfli əlaqələrin əsasının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin valisi Qurbanəli Səadət Qarabağ ölkəsində ulu öndərin böyük ehtiramla xatırlandığını dedi. İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin dəvəti ilə ölkəmizə səfər etdiklərini deyən Qurbanəli Səadət Qarabağ İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti ilə Azərbaycan Respublikası arasında kənd təsərrüfatı, ticarət, turizm və digər sahələrdə əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi və bu məqsədlə ölkəmizin müvafiq qurumları ilə görüşlər keçirəcəyini vurğuladı.

## Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində kollegiya iclası keçirilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində keçirilən, 2016-cı ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclasını komitənin sədri Hicran Rüstəmov açaraq məruzə ilə çıxış edib.***

Komitə sədri bildirib ki, 2016-cı il ərzində muxtar respublikada 98 milyon 535 min 200 manat həcmində tikinti işləri yerinə yetirilib. Belə ki, hesabat ilində Naxçıvan şəhərində 3 nömrəli, Naxçıvan şəhər Tumbul, Şərur rayonunun Arbatan, Oğlanqala, Babək rayonunun Xəlilli, Yarımca, Məzrə, Culfa rayonunun Gülüstan, Xanəgah, Saltaq, Kəngərli rayonunun Şahtaxtı, Yurdçu, Ordubad rayonunun Baş Dizə kəndlərində tam orta məktəb, Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey, Naxçıvan Dövlət Texniki Kolleci binalarının tikintisi və yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib.

Bu dövrdə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının ərazisində uşaq bağçasının yenidən qurulması başa çatdırılıb, Kəngərli rayonunda 222 yerlik uşaq bağçasının tikintisi davam etdirilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası qədim abidələr və maddi-mədəniyyət nümunələri ilə zəngindir. Bəhs olunan dövrdə muxtar respublikada iki mühüm tarixi abidə bərpa edilib. Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksində isə bərpa işlərinə başlanılıb.

Quruculuq tədbirləri səhiyyə sahəsini də əhatə edib. Babək rayonunun Yarımca, Culfa rayonunun Saltaq, Xanəgah və Şərur rayonunun Oğlanqala kəndlərində həkim ambulatoriyalarının tikintisi və yenidən qurulması həyata keçirilib. Naxçıvan Qarnizonunun hərbi xəstəxanasının tikintisi və Şərur Rayon Mərkəzi Xəstəxanasında əsaslı təmir işləri davam etdirilir.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın tikinti işləri aparılan hər bir kəndində avtomobil yolları və körpülər yenidən qurulur. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 may tarixli Sərəncamına əsasən, Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsinin də yenidən qurulması belə tədbirlər sırasındadır. Kənd yaşayış məntəqələrində də bu istiqamətdə işlər görülüb, yeni körpülər salınıb, mövcud körpülər yenidən qurulub.

Məruzə ətrafında komitənin Babək və Kəngərli rayon idarələrinin rəisləri Rəvayət İmanovun və Vəzir Əliyevin çıxışları olub.

Kollegiya iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov bildirib ki, Azərbaycanın bütün bölgələrində olduğu kimi, muxtar respublikamızda da böyük miqyasda abadlıq-quruculuq işləri aparılmaqda və bunlar doğma diyarımızın simasına yeni çalarlar gətirməkdədir. Muxtar respublikanın sosial-iqtisadi uğurlarında, investisiya layihələrinin reallaşmasında, məşğulluq problemlərinin həllində tikinti sektoru əhəmiyyətli rol oynayır.



Qeyd olunub ki, 2016-cı ildə muxtar respublikada infrastruktur quruculuğu istiqamətində əsas kapitala 104 milyon 188 min 900 manat həcmində investisiya yönəldilib. Bunun da 98 milyon 535 min 200 manatı və ya 94,6 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Bu gün muxtar respublikada həyata keçirilən tikinti işləri təsərrüfat həyatının bütün sahələrini əhatə edir. 2016-cı il ərzində 1200 şagird yerlik 6 məktəb binası tikilərək, 4260 şagird yerlik 9 məktəb binası yenidən qurularaq, bütövlükdə 5460 şagird yerlik 15 tam orta məktəb binası istifadəyə verilib. Dörd məktəb binasının isə tikintisi davam etdirilir.

Vurğulanıb ki, əhalinin mənzil təminatının yaxşılaşdırılması, elektrik enerjisi, su-kanalizasiya, istilik təsərrüfatlarının təkmilləşdirilməsinə göstərilən dövlət qayğısının nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada 1 yaşayış binasında tikinti-bərpa işləri aparılıb, 9 yaşayış binasında əsaslı təmir və yenidənqurma işləri başa çatdırılıb. Bir yaşayış binasının tikintisi, 1 yaşayış binasının isə yenidən qurulması davam etdirilir.

Dövlət idarə etməsinin səmərəli təşkili prosesinin mühüm elementi qismində inzibati binaların inşası və yenidən qurulması ötən dövr ərzində də diqqət mərkəzində saxlanılıb və ümumilikdə, 17 inzibati bina inşa olunub. 8 inzibati binanın tikintisi və yenidən qurulması davam etdirilir.

Kənd əhalisinə göstərilən xidmətin səviyyəsinin yaxşılaşdırılması, bu sahədə idarəetmənin səmərələşdirilməsi məqsədilə 2016-cı ildə 13 kənd mərkəzi istifadəyə verilib.

Vurğulanıb ki, yeni yaradılmış infrastruktur obyektlərindən biri də xidmət mərkəzləridir. Rayon və kəndlərdə əhalinin gündəlik məişət tələbatının ödənilməsi və lazımi şəraitin yaradılması diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə 14 xidmət mərkəzi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, 3 xidmət mərkəzinin isə tikintisi və yenidən qurulması davam etdirilir.

Muxtar respublikada 2016-cı il ərzində səhiyyə sahəsində də mühüm işlər görülüb, 13 həkim ambulatoriyası tikilərək, 4 həkim ambulatoriyası yenidən qurularaq, 9 feldşer-mama məntəqəsi tikilərək və yenidən qurularaq istifadəyə verilib. İki xəstəxananın tikintisi və əsaslı təmiri isə davam etdirilir.

Asəf Məmmədov deyib ki, ötən il ərzində tikinti-quraşdırma işləri muxtar respublikanın mədəniyyət obyektlərini də əhatə edib. 29 mədəniyyət obyekti tikilərək və ya yenidən qurularaq istifadəyə verilib.

Yüksək mədəniyyətin göstəricisi olan müasir yollar insanların rahatlığı, nəqliyyat vasitələrinin uzunmüddətli istismarı deməkdir. Ona görə də ötən il bu istiqamətdə işlər davam etdirilib. 61,5 kilometrdən artıq yeni yollar salınıb, 3 körpü tikilib, 2 körpü yenidən qurulub.

Baş nazirin birinci müavini diqqətə çatdırıb ki, ötən il əldə edilmiş müsbət nəticələrə baxmayaraq, muxtar respublikada fəaliyyət göstərən tikinti təşkilatlarının işində nöqsan və çatışmazlıqlar da olub. Muxtar respublikada aparılan quruculuq işləri zamanı keyfiyyət amilinin əsas şərt kimi qeyd olunmasına və tapşırılmasına baxmayaraq, bəzi tikinti təşkilatları keyfiyyət amilini unudaraq kəmiyyət ardınca qaçırlar. Keçirilən operativ yığıncaqlarda, obyektlərdə tikintinin gedişinə baxış keçirərkən, eləcə də tikinti təşkilatlarının iştirakı ilə keçirilən müşavirələrdə deyilməsinə baxmayaraq, komitənin texniki nəzarətçiləri obyektdə iş həcmlərinin ölçülməsi ilə öz işlərini bitmiş hesab edirlər. Onlar normativə uyğun iş görülməsi, keyfiyyətsiz işlərə yol verilməməsi üçün diqqəti daha da artırmalı, nəzarəti gücləndirməlidirlər. İşdə məsuliyyət hissi yüksəldilməli, vəzifəsindən və səlahiyyətindən asılı olmayaraq hər kəs öz işinin öhdəsindən layiqincə gəlməyə çalışmalıdır. Eyni zamanda podratçı təşkilatların işinə ciddi nəzarət edilməli, tikinti normativlərinə əməl olunmasına diqqət yetirilməli, nəzarət mexanizminin gücləndirilməsi üçün müvafiq tədbirlər görülməlidir.

Asəf Məmmədov əmin olduğunu bildirib ki, muxtar respublikada gedən quruculuq işlərində layiqincə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, tikinti idarələrinin kollektivləri işlərində ciddi dönüş yaradacaq, qeyd olunan nöqsanların gələcəkdə təkrarlanmaması üçün öz işlərinə daha məsuliyyətlə yanaşacaqlar.

✍ **Muxtar MƏMMƏDOV**

## Şura iclasında görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub

***Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının növbəti şura iclasında ötən il görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub. Şura iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov məruzə edib.***

Bildirilib ki, 2016-cı ilin oktyabr ayında Yeni Azərbaycan Partiyasının rayondakı ilk təşkilatlarında hesabat-seçki yığıncaqları keçirilib. Aparılan struktur dəyişikliyinə görə ərazi ilk təşkilatlarının sayı 55-ə endirilib və bu ilk təşkilatlarda hesabat-seçki yığıncaqları keçirilib.



Qeyd olunub ki, 2016-cı ildə keçirilən referendumda rayon təşkilatı fəal iştirak edib, Konstitusiyamızda edilən əlavə və dəyişikliklər dəstəklənib.

Hesabat ili ərzində milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasına, onun inkişaf etdirilməsinə diqqətlə yanaşılıb. Belə ki, tarixi günlər, bayramlar və digər tədbirlər müntəzəm olaraq qeyd edilib.

Vurğulanıb ki, 1 yanvar 2017-ci il tarixə rayon təşkilatının və onun 55 ərazi ilk təşkilatının tərkibində 5435 nəfər Yeni Azərbaycan Partiyası üzvü uçotda durur. 2016-cı ildə 81 nəfər Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunub ki, onların da 39 nəfəri qadın, 67 nəfəri gəncdir.

Rayon təşkilatı gənclərin fəallığının artırılmasına xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, ərazi ilk təşkilat sədrlərinin 24 nəfəri gəncdir. Bələdiyyələrdə 41 gənc partiya üzvü təmsil olunub.

Rayon təşkilatının Gənclər Birliyi öz ətrafında 1740 nəfər Yeni Azərbaycan Partiyası üzvünü birləşdirir ki, onlardan 917 nəfərini qadınlar təşkil edir.

Vurğulanıb ki, bu gün cəmiyyətimizdə qadınların rolu böyükdür. Culfa rayonunda da qadınlara yüksək diqqət və qayğı göstərilir. Hazırda rayon üzrə Yeni Azərbaycan Partiyasının üzvü olan qadınların sayı 2556 nəfərdir. 2016-cı ildə rayon təşkilatının, eləcə də ərazi ilk təşkilatlarının fəaliyyətlərində, keçirilən ictimai-siyasi, mədəni-kütləvi tədbirlərdə Yeni Azərbaycan Partiyasının üzvü olan qadınlar fəallıq göstəriblər.

Məruzə ətrafında çıxışlar olub.

Sonra təşkilatın idarə heyətinin yığıncağı keçirilib, bir qrup gənc partiya sıralarına qəbul edilib.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

***Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi məşğulluq probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Son illər Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasına və əhalinin işlə təminatına əsaslı zəmin yaratmışdır.***

# Naxçıvanda əhalinin işlə təminatı diqqətdə saxlanılır



“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaratmış, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açmışdır. Dövlət proqramına uyğun olaraq əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılmış, 77-si dövlət, 86-sı isə özəl olmaqla, ümumilikdə, 163 müəssisədə sorğu keçirilmişdir. Sorğuların nəticələrinə əsasən, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbat müəyyənləşdirilmiş, əmək bazarının tələbinə uyğun peşə kursları təşkil edilmiş, işaxtaranlar mövcud olan vakansiyalar üzrə işlə təmin edilmiş və sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu diqqət mərkəzində saxlanılmışdır. Nəticədə, muxtar respublikada 2818 yeni iş yeri açılmışdır ki, bunun da 98 faizi daimi iş yerləridir.

Aktiv məşğulluq tədbirləri dövlət proqramında nəzərdə tutulmuş tələblər əsasında yerinə yetirilmiş, 2016-cı ildə 3458 şəxs iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuşdur ki, onlardan 2842-si məşğulluq xidməti orqanları tərəfindən, 345-i Azərbaycan Respublikası Silahlı Qüvvələrinə və digər qoşun növlərinə hərbi xidmətə qəbul edilənlər, 271-i isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya vasitəsilə dövlət qulluğu vəzifələrinə təyin olunanlardır. Bu dövrdə muxtar respublika üzrə 366 şəxs müvəqqəti işlərə, 277 işaxtaran isə sosial əhəmiyyətli haqqödənilən ictimai işlərə cəlb edilmişdir ki, bunlardan 40-ı sağlamlıq imkanları məhdud şəxslərdir. 2016-cı ildə təşkil olunmuş əmək yarmarkalarında, ümumilikdə, 649, o cümlədən Təhsil və Səhiyyə nazirliklərində mövcud olan vakansiyalar üzrə keçirilən əmək yarmarkalarında 297 vətəndaş işlə təmin olunmuşdur. Qeyd olunanlarla yanaşı, tətil günlərində işləmək istəyən 33 tələbə isə mövsümi işlərə göndərilmişdir. Hərbi xidmətdən yeni tərxis olunan şəxslərin məşğulluqlarının təmin edilməsi də nəzarətdə saxlanılmış, bu qəbildən olan 74 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuş, 14 nəfər isə peşə hazırlığına cəlb edilmişdir.

Muxtar respublikada əhalinin məşğulluq imkanlarının genişləndirilməsində kiçik və orta sahibkarlığın inkişafı əsas istiqamətlərdən biri kimi götürülmüşdür. Buna görə də bəhs olunan dövrdə muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən kiçik və orta sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması məqsədilə 27 milyon 407 min 800 manat həcmində güzəştli şərtlərlə kredit verilmişdir. Nəticədə, 2016-cı ildə dövlət maliyyə dəstəyi hesabına yaradılmış 12 istehsal və 3 xidmət sahəsində 63, özəl investisiya qoyuluşu hesabına yaradılmış 17 istehsal və xidmət sahəsində isə 51 yeni iş yeri açılmışdır. Sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün müvafiq kurslar da keçirilmişdir.



Kəndlərdə əsas məşğulluq sahəsi olan əkinçilik və heyvandarlığın inkişafı üçün banklar və kredit təşkilatları tərəfindən ötən il ərzində 9 milyon 765 min 500 manat dövlət maliyyə dəstəyi göstərilmiş, 11 fərdi təsərrüfatın və kiçik müəssisənin yaradılması başa çatdırılmışdır.

Muxtar respublikada aparılan geniş quruculuq tədbirləri də yeni iş yerlərinin açılmasına əlverişli şərait yaradır. Kəndlərdə istifadəyə verilən xidmət mərkəzləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Ötən dövrdə kəndlərdəki xidmət mərkəzlərində fəaliyyət göstərən bərbər, gözəllik salonu və dərzi sexlərində monitorinqlər aparılmış, mövcud olan vakansiyalar üzrə çalışmaq istəyən şəxslər müəyyənləşdirilmiş, Naxçıvan Regional Peşə-Tədris Mərkəzində müvafiq kurslar təşkil edilmişdir. Nəticədə, xidmət mərkəzlərində bərbər, gözəllik salonu və dərzi sexlərində vakant yerlər üzrə 79 sakin işlə təmin olunmuşdur.

Əmək bazarının tələbinə müvafiq olaraq, işaxtaranların peşə hazırlığının təşkili də diqqət mərkəzində saxlanılmış, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən, ümumilikdə, 413 nəfərin cəlb edildiyi 22 peşə kursu və 93 nəfərin cəlb olunduğu 6 ixtisasartırma kursu təşkil edilmişdir. Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində təşkil edilmiş 3 peşə hazırlığı kursuna isə 34 məhkum cəlb olunmuşdur. Təhsil Nazirliyinin tabeliyində olan peşə məktəblərində isə ilk peşə ixtisası qruplarına il ərzində 2744 müdavim qəbul olunmuşdur. Hazırda peşə məktəblərində 421 müdavim təhsilini davam etdirir. Ötən dövr ərzində xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə Naxçıvan Regional Peşə-Tədris Mərkəzində bərbər, bərbər-manikürçü, dərzi və aşpaz köməkçisi kurslarına 105 nəfər cəlb edilmişdir. Təhsil Nazirliyi tərəfindən isə ofisiant, aşpaz köməkçisi, çörək ustası, turizm agenti və bağban ixtisasları üzrə 527 nəfər ilk peşə ixtisası müəssisələrini bitirmişdir. Bundan əlavə, İqtisadiyyat Nazirliyi tərəfindən “Naxçıvan Biznes Mərkəzi” MMC-də muxtar respublikada fəaliyyət göstərən 37 ticarət obyektində işçilərə “ticarət qaydaları” adlı tədris kursu keçirilmişdir. Həmçinin iaşə və mehmanxana obyektlərində fəaliyyət göstərən işçilərə də xidmət mədəniyyəti ilə bağlı maarifləndirici seminarlar təşkil olunmuşdur.

Bu gün xalq sənətkarlığı sahələrinin dirçəldilməsi bir tərəfdən milli dəyərlərimizin yaşadılmasına, digər tərəfdən isə yeni sənətkarların yetişməsinə və istedadlı gənclərin məşğulluğunun təmin olunmasına xidmət edir. Bu səbəbdən də dövlət proqramının icrası zamanı xalq tətbiqi sənəti növləri üzrə kursların keçirilməsinə diqqət artırılmış, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən xalçaçı, Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində isə daş üzərində oyma peşəsi üzrə kurslar təşkil edilmişdir. İqtisadiyyat Nazirliyi tərəfindən “Xalq Yaradıcılığı Emalatxanası”nda ağac üzərində oyma, xalçaçılıq, rəssamlıq və dekorativ-tətbiqi sənət üzrə bölmələrin fəaliyyəti davam etdirilmişdir. Təhsil Nazirliyi tərəfindən xalçaçı, modelçi-dərzi, bədii tikmə ustası və biçici, çörək və qənnadı məmulatları ustası peşələri üzrə təşkil olunmuş kursları isə 272 müdavim bitirmişdir. 2015-2016-cı tədris ilinin sonunda tam orta məktəbdə natamam orta təhsili bitirərək peşə təhsili almaq istəyən 22 gənc peşə hazırlığı kurslarına cəlb edilmişdir. Həmçinin ötən il muxtar respublikada keçirilən festival, sərgi və müsabiqələrdə 304 qadının 11 min 861 manat dəyərində əl işinin satışı təşkil edilmişdir.



“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nda sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu üzrə müvafiq tədbirlərin görülməsi də nəzərdə tutulmuşdur. Bu kateqoriyadan olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dövlət və özəl müəssisələrdə işlə təmin olunması diqqətdə saxlanılmış, 2016-cı ildə 27 nəfər kvota yerləri üzrə işə göndərilmiş, cəzaçəkmə müəssisəsindən azad olunmuş 8 nəfər, ünvanlı dövlət sosial yardımı almaq üçün müraciət edən 105 nəfər işlə təmin olunmuş, habelə fərdi təsərrüfatlarının inkişafı üçün 2 aztəminatlı ailəyə müvafiq köməklik göstərilmişdir. Sağlamlıq imkanları məhdud 114 şəxs peşə məktəblərində təhsil almağa cəlb edilmiş, bu kateqoriyadan olan və peşə təhsilinə malik 111 vətəndaş işlə təmin olunmuşdur. Novruz bayramı ərəfəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sağlamlıq imkanları məhdud şəxslər üçün təşkil edilmiş sosial layihə çərçivəsində 8 nəfər səməni yetişdirilməsi üçün müvəqqəti işlə təmin olunmuşdur. Bununla yanaşı, hərbi hissələrə yun corab və şərf toxunuşu ilə əlaqədar sağlamlıq imkanları məhdud 23 qadınla müqavilə bağlanmış, 700 yun şərf və 3000 cüt yun corab toxunaraq hərbi hissələrə təhvil verilmişdir. Həmçinin “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” adlı sosialyönümlü haqqödənilən ictimai işə 11 xalçatoxuyan evdar qadın cəlb olunmuşdur. Ötən dövr ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 37 sağlamlıq imkanları məhdud vətəndaşın ümumi dəyəri 5875 manat olan rəsm əsərlərinin və əl işlərinin satışı təşkil edilmişdir.

Ötən dövrdə işçilərin əmək hüquqlarının təmin edilməsi məqsədilə qeyri-formal məşğulluğun qarşısının alınması, işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının reallığı əks etdirməsinə də nəzarət gücləndirilmiş, monitorinqlər aparılmışdır. Qeyd olunanlarla yanaşı, işəgötürənlər tərəfindən iş yerlərində sağlam sanitariya-gigiyena şəraitinin yaradılmasına, işçilərin fərdi mühafizə vasitələri ilə təmin edilməsi və əməyin mühafizəsi qaydalarına əməl olunmasına nəzarət məqsədilə 69 obyektdə monitorinq keçirilmişdir. Bundan əlavə, Naxçıvan Regional Peşə-Tədris Mərkəzində “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” və “İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi” mövzularında 7 maarifləndirici kurs təşkil olunmuşdur.

***“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası bundan sonra da muxtar respublikada işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə və peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına əsaslı zəmin yaradacaqdır.***

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə “Milli qəhrəmanlarımız və şəhidlərimiz” mövzusunda maarifləndirici tədbir keçirilib.***

# Dövlət Miqrasiya Xidmətində növbəti maarifləndirici tədbir



Tədbiri xidmətin əməkdaşı Samir Abbasov açaraq iştirakçılara xalqımızın azadlığı və torpaqlarımızın bütövlüyü uğrunda mübarizəsi, bu yolda canlarından keçən şəhidlərimiz və milli qəhrəmanlarımız haqda məlumat verib.

Slaydların nümayiş etdirildiyi tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev mövzu ilə bağlı məruzə edib.

Qeyd olunub ki, insan üçün həyatda ən gözəl və ən doğma şəxs onu dünyaya gətirən anadır. Ana müqəddəsdir və məhz müqəddəsliyinə görə Vətəni də anamız kimi sevir, ona “Ana Vətən!” deyirik. Vətən bizim varlığımız, fəxrimiz, qürurumuzdur. Vətən uğrunda, onun azadlığı və istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, öz ölümləri ilə ölümsüzlüyə qovuşurlar. Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir. Neçə-neçə ərənlər yetişdirib bu müqəddəs torpaq, ulu diyar. Bu torpaq Babəklərin, Cavanşirlərin, Koroğluların vətənidir. Belə qəhrəmanlar həmişə yaşamışdır və daim yaşayacaqdır.

Bildirilib ki, 20 Yanvar, Xocalı faciələri, Qarabağda baş verən hadisələr bu xalqın azadlıq, müstəqillik arzusunu boğa bilmədi, əksinə, xalq ayağa qalxdı, öz haqqını tələb etdi. Bu haqqın alınmasında igidlərimizin böyük rolu oldu. Onlar canlarından keçərək haqq savaşından qalib ayrıldılar. Ona görə də xalqımız qəhrəmanlarını, şəhidlərini unutmur, onların adını daim uca tutur. Bu gün muxtar respublikanın onlarla məkanında milli qəhrəmanlarımızın, eləcə də şəhidlərimizin adını daşıyan ünvanlar var.

Sonra əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Naxçıvan şəhərindəki Xatirə Muzeyini ziyarət ediblər. Burada onlar muzeyin ekspozisiyası ilə tanış olub, eksponatlar haqda ətraflı məlumat alıblar.

Kərəm HƏSƏNOV

# Təmiz su sağlamlığın qorunmasında əsas amildir

***Su insan üçün ən vacib nemətlərdəndir. Canlı həyatın yaranması və yaşaması üçün suyun nə dərəcədə əvəzedilməz olduğunu hər kəs bilir. İnsana lazım olan şirin su ehtiyatları təbiətdə çox məhdud və qeyri-bərabər şəkildə paylanıldığından ondan düzgün istifadə onun ən vacib məsələlərdəndir.***



Su həyat mənbəyidir. Su olmasa, Yer üzündə heç bir canlı yaşaya bilməz. Planetdəki canlıların çoxalması ilə suya olan tələbat da artır. Bununla yanaşı, insanın mədəni tələbatları təmiz suya olan ehtiyacı daha da artırır.

Naxçıvan özünün iqlimi və relyef quruluşuna görə müxtəlif səviyyədə su ehtiyatlarına malikdir. Muxtar respublikada bəzi yerlərdə bütün ilboyu içməli su mənbəyi olan çox sayda bulaqlar çağladığı halda, bir çox yerlərdə belə su mənbələri olmadığından əhalinin suya olan tələbatı da təbii şəkildə ödənilmir. Bulaq suyu ən təmiz, ən gözəl sudur. Ancaq təbiət bunu hər yerə bəxş etmədiyindən təmiz suyu bütün insanların istifadəsinə çatdıra bilmək dövlətimizin sosial qayğısının mühüm bir hissəsini təşkil edir. Çünki təmiz suyun olmaması müəyyən müddətdən sonra normal həyatda ciddi çətinliklər yaradır.

Bu baxımdan ölkəmizin müasir sosial-iqtisadi inkişaf mərhələsində əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər arasında müasir içməli su və kanalizasiya şəbəkəsinin yaradılması məsələləri də mühüm yer tutur. ***"İnsan sağlamlığı üçün əsas amillərdən biri də təmiz sudur"***, – deyən ölkə başçısı cənab İlham Əliyevin bu sahəyə qayğısı nəticəsində istər paytaxt Bakıda, istərsə də ölkəmizin regionlarında müasir standartlara cavab verən içməli su və kanalizasiya şəbəkələrinin yaradılmasına xeyli miqdarda vəsait ayrılıb. İnsan amilinə xidmət edən belə layihələr, son nəticədə, hər bir Azərbaycan vətəndaşının yüksək həyat səviyyəsinin təmin olunması məqsədi güdür. Doğrudan da, təmiz su insanın həm fiziki cəhətdən, həm də ruhən sağlam olmasına səbəb olur. İnsan sağlamlığı isə əsl milli sərvət kimi ölkəmizin inkişafında və dövlətimizin sosial siyasətində mühüm yer tutur. Elə bu il yanvar ayının 11-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Şahbuz və Culfa rayonlarında açılışını etdiyi içməli su və kanalizasiya şəbəkələri də bu siyasətin əyani göstəricisidir.

Şahbuz və Culfada istifadəyə verilmiş Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verən içməli su layihələri Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə həyata keçirilmiş növbəti tədbirlərdəndir. Bundan əvvəl Naxçıvan şəhərinin içməli su sisteminin yenidən qurulması tədbirləri çərçivəsində inşa olunan və 2014-cü il aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsində böyük rol oynayır.



Ölkə başçısının Naxçıvana son səfəri zamanı açılışını etdiyi Culfa şəhərindəki su və kanalizasiya, Gülüstan kəndindəki su şəbəkəsinin tikintisinə 2012-ci ildə başlanılıb. Əlincəçay yatağından çəkilən suyu təmizləyən qurğu 2045-ci ilə qədər əhalini və Culfadakı sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Culfanı su ilə təmin edən bu qurğu gün ərzində 10 min 800 kubmetr və ya saniyədə 125 litr sutəmizləmə gücünə malikdir. Öz axını ilə Culfa şəhərinə və Gülüstan kəndinə verilən təmizlənmiş su əhalinin illər boyu sudan çəkdiyi əziyyətlərə son qoyub. Culfa şəhəri və Gülüstan kəndində yaşayan 25 min 700 nəfər təmiz, dayanıqlı, ekoloji cəhətdən tam yararlı içməli su ilə davamlı olaraq təmin edilib.

Culfada yaradılmış su təminatı burada yaşayanların həyatında köklü keyfiyyət dəyişikliyi yaradıb. Culfa şəhər sakini, ziyalı Hüseyn Tağıyevlə söhbətimizdə buna əmin olduq. Hüseyn müəllim dedi ki, şəhərin mərkəzində yaşasaq da, beşinci mərtəbədəki evimizdə su sarıdan çox əziyyət çəkirdik. Problemi həll etmək üçün çənlər, nasoslar quraşdırmışdıq. Elə evə gələn suyun keyfiyyəti də yaxşı deyildi. Arazdan, Əlincəçaydakı Dərəlikdən evlərə gələn su xüsusən yağışlı günlərdə içməyə yaramır, su sistemlərinə zərər vururdu. Bizim kimi mərkəzdə yaşayanlar üçün vəziyyət belə idi. Culfa şəhərinin kənarlarındakı yeni tikilmiş evlərdə isə, ümumiyyətlə, su yox idi. Sakinlər həyətlərdəki quyulardan qrunt sularını içirdilər. Culfada yay çox isti olduğundan bəzən bu quyuların da suyu tükənirdi. Amma indi bunların hamısı keçmişdə qalıb. Su xətlərimiz tamamən yenilənib, yüksək təzyiqlə, günboyu öz axarı ilə gələn sudan beşinci mərtəbədə istifadə edirik.

Evdə hamı, xüsusən xanımlar, uşaqlar çox rahatdırlar, – deyən Hüseyn müəllim dövlətimizə minnətdarlığını bildirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Şahbuz rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimi muxtar respublikamızın bu bölgəsində yaşayan əhali üçün yaddaqalan hadisədir. Şahbuz şəhərinə, Kiçikoba və Daylaqlı kəndlərinə çəkilmiş su şəbəkəsi burada yaşayan əhalinin təmiz su ilə təmin olunmasında mühüm rol oynayır. 2045-ci ilə qədər əhalini və rayondakı sənaye müəssisələrini 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək sutəmizləyici qurğu gün ərzində 6 min 600 kubmetr və ya saniyədə 76 litr sutəmizləmə gücünə malikdir. Layihənin həyata keçirilməsi ilə Şahbuz şəhəri, Kiçikoba və Daylaqlı kəndlərində 15 min 300 nəfər 24 saat daimi su ilə təmin olunur.

Yeni istifadəyə verilmiş su xətləri sakinlərin ürəyincədir. Şahbuz təbiətən bol sulu bir bölgə olsa da, burada yaşayanların əksəriyyəti, xüsusən rayon mərkəzi, Daylaqlı və Kiçikoba kəndləri su sarıdan əziyyət çəkirdi.

Su problemini hamıdan çox evdar xanımlar bilər, – deyir Şahbuz şəhər sakini Xatirə Əliyeva. Xatirə xanım bildirir ki, işdən sonrakı vaxtımızın əsas hissəsi evə su daşımaq olurdu. Fərdi həyətdə yaşadığımızdan bura su xətti də çəkilməmişdi. Heç kanalizasiya sistemi də yox idi. Bütün bunlarsız necə əziyyət çəkdiyimizi özünüz təsəvvür edin. Ölkə Prezidentinə minnətdaram ki, bütün bu problemlərimizi birdəfəlik həll etdi. Artıq mətbəximiz, qab-qazanlarımız tərtəmiz, ev işlərimiz çox rahatdır. İndi vaxtımı su daşımaqla deyil, nəvələrimlə, onların qayğıları ilə keçirə bilirəm. Bir gün buyurun bizə, büllur kimi Batabat suyundan sizi çaya qonaq edim, – deyə şahbuzlulara xas qonaqpərvərliklə gülümsəyir Xatirə xanım.

*Bəli, su qiymətli sərvətdir. Təmiz su ehtiyatlarının qorunması və keyfiyyətli su təminatı isə genişhəcmli investisiya tələb edən bir məsələdir. Bu da, öz növbəsində, suyun istər texniki, istər suvarma, istərsə də məişət məqsədləri üçün istifadəsində dövlətin rolunu zəruri edir. Cari ildə həyata keçiriləcək Dövlət İnvestisiya Proqramı çərçivəsində Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin də su-kanalizasiya problemlərinin həlli dövlətimizin hər bir vətəndaşına, onun sağlamlığına göstərdiyi qayğıdır. Bu qayğı hər birimizin həyatında keyfiyyət dəyişikliyi yaradır. Ona görə də çəkilmiş bu suyun hər damlası bizim üçün çox qiymətlidir.*

✍ **Əli CABBAROV**

## Dövlət proqramı uğurla icra olunur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın müəyyənləşdirdiyi vəzifələr uğurla icra olunur.***

Dövlət proqramına uyğun olaraq ötən il ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya tərəfindən Naxçıvan şəhərinin və muxtar respublikanın bütün rayonlarının təhsil müəssisələrində tədrisə cəlb edilən sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması ilə bağlı monitorinqlər aparılıb, valideyn, şagird və müəllimlərlə maarifləndirici görüşlər keçirilib.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Babək rayonunun Nehrəm kəndində fəaliyyət göstərən məktəblərdə monitorinq aparılıb və kənd 1 nömrəli tam orta məktəbində maarifləndirici görüş keçirilib. Tədbirdə Nehrəm kənd 1, 2 və 3 nömrəli tam orta məktəblərində, həmçinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların valideynləri, bu kateqoriyadan olan uşaqlara dərs deyən müəllimlər və məktəb psixoloqları iştirak ediblər. Görüşdə məktəblərdə psixoloji xidmətin təşkilindən, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbindən, onların təhsili ilə bağlı hazırlanan fərdi proqramların icrasından, həmçinin bu kateqoriyadan olan uşaqların reabilitasiyası istiqamətində görülən işlərdən danışılıb.

Komissiya üzvləri tərəfindən tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## AMEA Naxçıvan Bölməsi ilə ümumtəhsil müəssisələri arasında interaktiv əlaqə yaradılıb




***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına təkan verib. Bu sahədə mütəmadi olaraq həyata keçirilən tədbirlərdən biri də interaktiv dərslərin təşkilidir.***

Növbəti belə interaktiv dərs yanvarın 25-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında təşkil olunub.

"Günəş sisteminin iri cisimləri: planetlər" mövzusunda keçilən dərsdə AMEA Naxçıvan Bölməsi Batabat Astrofizika Rəsədxanasının direktoru Qulu Həziyev bildirib ki, kainat bizi əhatə edən sonsuz varlıq olub, 100 milyonlarla qalaktikadan ibarətdir. Qalaktika göy cisimlərinin bir-biri ilə qarşılıqlı əlaqəyə girərək əmələ gətirdikləri sistemdir. Bu sistemlərdən biri bizim yaşadığımız Yer planetinin daxil olduğu Günəş sistemidir. Bu sistemə Günəş, onun ətrafında fırlanan 9 planet, onlarla peyk, minlərlə asteroid, komet və meteoritlər daxildir. Komet və meteoritlər daha kiçik səma cisimləridir.

Qeyd olunub ki, Yerə ən yaxın ulduz sayılan Günəş bizdən 150 milyon kilometr məsafədə yerləşir. Günəş 70 faiz hidrogendən, 29 faiz heliumdan ibarətdir. Saniyədə 300 min kilometr sürətlə hərəkət edən işıq şüası Günəşdən Yerə 8,3 dəqiqəyə gəlib çatır. Günəşin atmosferi 3 qatdan – fotosfer, xromosfer və Günəş tacından ibarətdir. Hər bir planetin Günəş ətrafında hərəkəti zamanı yaratdığı mərkəzdənqaçma qüvvəsi Günəşin həmin planeti özünə cəzbetmə qüvvəsinə bərabər olduğuna görə, Günəş sistemi sabit halda fəaliyyət göstərir. Günəş ətrafında fırlanan 9 planetdən 4-ü (Merkuri, Venera, Yer və Mars) yertipli planetlərdir və bu planetlərin sahələri kiçik, sıxlığı böyük olur. Yupiter, Saturn, Uran, Neptun və Pluton planetləri isə nəhəng planetlərdir. Bu planetlərin isə sahələri böyük, sıxlığı kiçik olur.

Diqqətə çatdırılıb ki, Yerin təbii peyki olan Ay Yerə ən yaxın səma cismi olub, Yerdən 384,400 kilometr məsafədədir. Ay özü işıq saçmır. O, ya bilavasitə, ya da yerdən əks olunan Günəş şüaları ilə işıqlanır. Bunun səbəbi isə Ayın Yer ətrafında və eyni zamanda Günəş ətrafında fırlanmasıdır. Yer, Ay və Günəşin fəzadakı mövqeyi və hərəkəti arasında cüzi uyğunsuzluq Günəş və Ay tutulmalarına səbəb olur. Yer kürəsi Ay və Günəş arasında olduqda Ay tutulması, Ay Yer ilə Günəş arasında olduqda isə Günəş tutulması baş verir.

Qulu Həziyev Batabat Astrofizika Rəsədxanasının fəaliyyəti barədə də şagirdlərə geniş məlumat verib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyinin təşkilatçılığı ilə slaydlar vasitəsilə keçirilən interaktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil müəssisəsində izlənilib.

✍ **Səbuhi HƏSƏNOV**



*Naxçıvan şəhər 16 nömrəli tam orta məktəb*



*Ordubad şəhər 3 nömrəli tam orta məktəb*



*Babək rayon Qahab kənd tam orta məktəbi*

## "Hafizə məktəbi" davam edərsə...

*Hər dəfə məktəb və təhsil haqqında söhbət açılanda bunların övladlarımızın yaxşı təlim-tərbiyə alıb xoşbəxt gələcəyə qovuşması üçün ən vacib şərtlər olduğunu düşünürük. Bunda haqlıyıq. Çünki təhsil almadan heç kimin müasir cəmiyyətin inkişafına heç bir pillə də yetişməsi mümkün deyildir. Cəmiyyət isə sürətlə inkişaf edir və bu gün 4-cü sinif şagirdlərinin ev tapşırıqlarına baxdıqda bunların ötən əsrin 80-ci illərində 8-ci siniflər üçün verildiyini görürük. Burda isə təəccüblənməməliyik. Çünki bilirik ki, yetkin, savadlı insan yetişdirilməsi dövrlə ayaqlaşmağın tək yoludur.*

İnsan sahib olduğu məhdud fiziki imkanları ilə müqayisədə sonsuz intellektual qabiliyyətə malik olan ali varlıqdır. Yaradanın insana bəxş etdiyi qabiliyyətin cəmiyyətə faydalı olan sərvətə çevrilməsi isə ailədən başlanan, daha sonra müxtəlif pillələrdə davam etdirilən təlim-tərbiyə nəticəsində mümkün olur. Ancaq görürük ki, insanların potensialından artıq dərəcədə yüklənməsi bahasına hansısa nəticə əldə etmək istəyi bəzən arzuedilən deyil, tam əksinə nəticələr də verə bilir. Bunu xüsusən uşaqlarda, formalaşmaqda olan gənc nəsildə daha tez-tez müşahidə edirik. Bəs buna səbəb nədir? Son illər təhsildə görünən bu və bunun kimi problemlər barəsində aparılan diskussiyalar zamanı yetişən gənc nəslin hərtərəfli inkişafdan uzaq, əzbərçilik və hafizə məktəbi yönlü təhsilin təsirlərindən qorunması üçün müxtəlif fikirlər səsləndirilir, təkliflər verilir. Problem ciddidir və ən azından bircə dəfə orta məktəb şagirdlərinin cavab axtardığı çoxminlik test tapşırıqları ilə tanış olan şəxslər, çətin ki, bu vasitə ilə gənclərin hərtərəfli biliklərə malik ziyalı olacağına inansınlar. Çünki belə əzbərçiliklə gələcəkdə qarşıya çıxan problemləri sərbəst həll edə bilən hərtərəfli yetişmiş kadrlar əvəzinə, sözün əsl mənasında, robotlaşmış bir insan yetişdirən təhsildən bundan daha yaxşısını gözləmək hələ ki mümkün deyil.

Yazıya giriş bir az sərt olsa da, etiraf etməliyik ki, ömrünü təhsilə vermiş tanınmış pedaqoqlar həmişə ibtidai sinifdən başlayaraq uşaqların sahib olduğu istedad və qabiliyyəti tutmağı bacarır, onlara düzgün yol göstərir, beləliklə də yaradıcı kadrlar formalaşdırırdılar. Ömrünün formalaşma mərhələsində müəyyən ixtisas qrupu üzrə keçirilən imtahanlarda qarşısına 500, 600 baldan artıq nəticə göstərmək vəzifəsi qoyulmuş və bunun üçün də test həlletmə yarışının içərisinə atılmış gənclərin sabah həyatın istənilən sahəsində üzləşdikləri problemlər qarşısında beşbəndli cavab variantları axtarmaqdan başqa bilik-bacarıqları olmayacaq və bununla da, kiçicik bir çətinlik qarşısında çarəsiz vəziyyətdə qalacaqlar.

Elmə yiyələnmək üçün ilk olaraq hansısa sahənin nəzəriyyəsi dərindən öyrənilməli, çoxlu kitablar, ədəbiyyatlar oxunmalı, problematik məsələlər araşdırılmalıdır. Məhz bundan sonra əldə olunan biliklərin test olunması, yəni onların yoxlanılması hər kəsin xeyrinədir. Bu məqamda orta təhsil pilləsində bütün fənlərin öyrənilməsi kimi çox vacib bir şərti kənara qoyub uşaqları hələ aşağı siniflərdən müəyyən fənlər üzrə hazırlıqlara göndərib digər fənlərdən imtina etməyin nə qədər düzgün olmayan bir seçim olduğunu görməkdəyik. Uşaqlar kitab oxumağa keçirdiyi vaxt qədər oyuncaqları ilə oynamağa, yaşıdları, sinif yoldaşları ilə asudə vaxt keçirməyə də maraqlı olurlar. Şübhəsiz, bir insanın düzgün formalaşması üçün bunlar da vacib şərtlərdir. Ancaq görürük ki, evdə həll edəcəyi bir-birinin təkrarı olan onlarla, yüzlərlə test tapşırıqları azmış kimi, sinifdə edilməli olan dərs tapşırıqları ilə üz-üzə qalan 10-17 yaşlı məktəblilərin bunlara heç vaxtı qalmır. Yaxud indiki qaydalara əsasən, misal üçün, III ixtisas qrupuna imtahan verəcək gələcək abituriyentin coğrafiya üzrə kifayət qədər bilikləri olmasa, görəsən, o, gələcəkdə fəlsəfə doktoru olsa da belə, tarix elmində hansı səviyyəyə yüksələ bilər? Eləcə də tarixdən və ya ədəbiyyatdan xəbəri olmayan həkimin gələcəkdə pasiyentləri ilə iş zamanı hansı humanitar biliklərə və düşüncələrə əsaslandığını təsəvvür etmək çətindir. Ümumiyyətlə, tarixi, xüsusən ölkəsinin tarixini bilməyən şəxsin necə bir ali təhsilli kadr və ya ümumiyyətlə, vətəndaş olduğunu düşünmək olarmı? Oxuculardan kimsə deyə bilər ki, gələcəkdə, misal üçün, kompüter mühəndisi olmaq istəyənə musiqi və ya iqtisadiyyat dərsləri lazımdırmı? Düzdür, indi bir çox orta məktəblərdə keçilməsi nəzərdə tutulan iqtisadiyyat dərsləri məktəb direktorları üçün çətinlik deyil, dərs saatı az olan müəllimlərin problemini həll etməyin ən yaxşı yoludur. Ancaq gələcəyin jurnalisti əgər universitetə daxil olmaq xatirinə, sadəcə, bir neçə fənn üzrə özünü hazırlaşdırmağı düşünürsə, onun gələcəkdə cəmiyyət həyatının müxtəlif sahələrində, o cümlədən iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə müşahidə, araşdırma və təhlil apara bilməsi, görəsən, nə dərəcədə mümkündür? Fikrimizcə, insanın öz gücünə inanması, hadisələrin və problemlərin dərinliklərinə qədər nüfuz edə bilməsi üçün ona cəsarət verən əsl savadın, elmin yerinə bir neçə min test əzbərləməsinin verə biləcəyi nəticə heç beş faizdən də artıq ola bilməz.

İnsan ən kamil sosial varlıqdır. Onun hərtərəfli yetişməsi, cəmiyyətə faydalı bir üzv kimi formalaşması həyatın bütün mərhələlərində, xüsusən də ilk təhsil pillələrində keçdiyi yoldan, məktəb yoldaşları ilə qurduğu dostluq münasibətlərindən, müvəffəqiyyət qazanmaq üçün uşaqlar arasında gedən sağlam rəqabətdən də çox asılıdır. Məktəb illərindən hətta otuz-qırx il keçəndən sonra da həmyaşıd adamlar o yaşdakı xatirələrini yaxşı xatırlayırlar. Kollektiv hərəkətlərin, dostluğun, ünsiyyətin təhsildəki rolu və gənclərin formalaşmasındakı əhəmiyyətini bu baxımdan xatırlatmağa ehtiyac yoxdur.

Başqa bir məsələyə diqqət yetirək. Valideynlərdən bir çoxu ədalətsiz olaraq düşünür ki, əgər uşaq zəif qiymət alırsa, deməli, o, yararsızdır. Təbii ki, bu, çox səhv yanaşma tərzidir. Çünki bütün əla oxuyan şagirdlərin hamısı heç də ideal həyat tərzinə və karyeraya malik deyillər və ya heç də bütün zəif oxuyanlar yararsız övlad deyildir. Atalar "Beş barmağın beşi də bir olmaz", – deyib. Amma "hafizə məktəbi" düşüncəsinə görə, hamı əzbərçiliklə hökmən ali təhsilli olmalı, elm yolunu tutmalıdır. Əslində isə bu, belə deyil. Uzağa getməyək. Bu gün ali təhsilini başa vurub öz arzusu ilə magistratura pilləsində təhsilinə davam edən gənclərin daha sonra öz karyerasını akademiya və ya ali məktəb müəssisələrində davam etdirməyə açıq-aşkar meyilli olmaması da, əslində, bu əzbərçiliyin məntiqi nəticəsidir. Elm bir müstəqil sahədir və elmi özünə karyera seçmiş gənc mütəxəssis bir anda görür ki, bir vaxtlar imtahanlardan keçmək naminə əzbərlədiyi testlərin heç yüzdə birinin də burda ona faydası yoxdur. Bu məqamda o görür ki, elm zamanında öyrənilən nəzəriyyələrə əsaslanan araşdırma, sərbəst düşüncə, müqayisə aparmaq, təhlil etmək və müstəqil nəticəyə gəlmək meydanıdır. Bütün inkişafın açarı insanı güc sahibi, ölkəni varlı, yaşayışı firavan edən elmə yiyələnmək isə hafizə məktəbindən deyil, düşüncə, məntiqi təfəkkür məktəbindən keçir. 2015-ci il mart ayının 14-də Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Təhsildə biliklərin mexaniki şəkildə əzbərlənməsinə yox, təhlilə, məntiqi təfəkkürə əsaslanan istiqamətlərin inkişafına çalışmalıyıq. Şagird və tələbələrin sərbəst mühakimə yürütmək və təhlil aparmaq bacarıqlarına, analitik nəticə çıxarmaq qabiliyyətlərinə üstünlük verməliyik".***

✍ Əli CABBAROV

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən təşkil edilən növbəti xarici dil kurslarının fevral ayından start veriləcək.*

## Növbəti ödənişsiz xarici dil kurslarına fevral ayından start veriləcək

Fonddan "Şərq qapısı" qəzetinə bildirilib ki, kurslarda iştirak etmək üçün əvvəlcədən qeydiyyatdan keçmək lazımdır. Belə ki, iştirakçılar qeydiyyatdan keçdikləri tarixə uyğun olaraq, növbəlilik prinsipi əsasında kurslarda iştirak etmək üçün çağırılırlar. Yeni kurslarda iştirak etmək istəyənlərin qeydiyyatı hər gün iş vaxtı Naxçıvan şəhərindəki Gənclər Mərkəzində aparılır.

Kursların müddəti beş aydır və həftədə üç dəfə müasir avadanlıqlarla təchiz edilmiş linqafon kabinələrdə keçirilir.

İştirakçılar kursun sonunda iki mərhələdən ibarət imtahan verəcəklər. Birinci mərhələdə yazı və şifahi nitq vərdişləri, ikinci mərhələdə isə bütün proqramı əhatə edən elektron imtahan götürülür. İmtahanlardan müvəffəqiyyətlə keçənlərə sertifikatlar təqdim edilir.

Qeyd edək ki, 2014-cü ilin aprel ayından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun təşkilatçılığı ilə Gənclər Mərkəzində ingilis, rus və fransız dilləri üzrə pulsuz hazırlıq kursları təşkil olunur. Dövlət vəsaiti hesabına təşkil olunan kurslarda iştirak etmək üçün bu günədək 1500-ə yaxın gənc qeydiyyatdan keçib. Onların 200-dən çoxu kurslarda iştirak edib, 100-ə yaxın gənc kursu müvəffəqiyyətlə bitirərək sertifikat alıb.

## Karateçilərimiz ilə uğurla başlayıblar

*Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası 2017-ci ilə də uğurla başlayıb. Belə ki, federasiyanın yetirmələri Bakı şəhərində təşkil olunan beynəlxalq turnirdə uğurla nəticələnmiş mübarizə aparıblar.*



Bakı İdman Sarayında Azərbaycan Respublikası Milli Karate Federasiyası və "Arpaçay" karate klubunun birgə təşkil etdiyi 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş uşaq, yeniyetmə və gənclər arasında klublararası beynəlxalq turnirdə 50 komandanın 700 idmançısı qüvvəsini sınayıb. İran İslam Respublikası, İsrail və Rusiya komandalarının da iştirak etdiyi turnirdə 5 idmançımız uğur qazanıb. 8-9 yaş qrupunda (33 kiloqram) mübarizə aparan Seyran Quluzadə yalnız final görüşündə məğlub olub. 10-11 yaş qrupunda (37 kiloqram) Məhəmməd Şıxəlili və 14-15 yaş qrupunda (70 kiloqram) Aslan İsmayılov da beynəlxalq turniri ikinci pillədə başa vurublar. Digər iki idmançımız – 12-13 yaş qrupunda (35 kiloqram) Vüsal Seyidov və 8-9 yaş qrupunda mübarizə aparan Aminə Novruzzadə (25 kiloqram) üçüncülüklə kifayətləniblər.

Sonda qalib olan idmançılarımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunublar.

## Şərq Döyüşü Sənəti Federasiyası bu il yarışların sayını artıracaq

*Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasında ötən ilin yekunları və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.*

Geridə qoyduğumuz ildə görülən işlər barədə danışan federasiyanın sədr müavini Cavanşir Salayev bildirib ki, muxtar respublikanın şəhər və rayonlarında bölmələri olan federasiyada 20-dən çox məşqçi-müəllim çalışır, ümumilikdə, 500-dən çox yeniyetmə və gənc bu idman növlərinin sirlərini öyrənir. Federasiyada 14 nəfərdən ibarət hakimlər kollegiyası fəaliyyət göstərir. Federasiyanın yetirmələri ötən il bir çox ölkədaxili və beynəlxalq turnirlərdə iştirak edərək gözəçarpan uğurlara nail olublar. Bununla yanaşı, bəhs olunan dövrdə muxtar respublikanın Gənclər və İdman Nazirliyi ilə birgə yarışlar, turnirlər təşkil edilib. 2017-ci ildə məqsəd federasiyanın nəzdində fəaliyyət göstərən bölmələrin iş qrafikini genişləndirmək və yeni idmançılar cəlb etməkdir. Cari ildə şəhər və rayon birinciliklərinin təşkil olunacaq. Uğur qazanan idmançılarımız isə ölkə birinciliklərində Naxçıvanı təmsil edəcəklər.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının rəhbəri Canməmməd Canməmmədov çıxışında Naxçıvan Muxtar Respublikasının Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilmiş müşavirədə verilmiş tapşırıqlara bağlı yığıncaq iştirakçılarını məlumatlandırıb.

✍ Ceyhun MƏMMƏDOV

*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında yeni ilin ilk "Lira" musiqili-intellektual oyunu keçirilib.*

## "Lira" musiqili-intellektual oyunu keçirilib

Oyun başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanova çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Lira" musiqili-intellektual oyununda muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin hamısının iştirak etməsi nəzərdə tutulub və bununla bağlı qrafik tərtib edilib. Qrafikə əsasən, 2016-2017-ci tədris ili ərzində keçirilən oyunların nəticəsinə görə, I yer tutan komandalar 2017-ci ilin ortalarında keçiriləcək final oyununda iştirak edəcəklər. Bu oyunların keçirilməsində məqsəd şagirdlərin biliyinin artırılmasına, onların intellektual səviyyəsinin yüksəldilməsinə kömək göstərməkdir.

Oyunda "Ariya" (Babək Rayon Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi), "Cəngi" (Şərur Rayon Aralıq Kənd Uşaq Musiqi Məktəbi), "Qala" (Sədərək Rayon Uşaq Musiqi Məktəbi), "Muğam" (Şahbuz Şəhər Uşaq Musiqi Məktəbi), "Simayi-Şəms" və "Humayun" (Naxçıvan şəhər 3 və 4 nömrəli uşaq musiqi məktəbləri), "Aksent" (Ordubad Rayon Vənənd Kənd Uşaq Musiqi Məktəbi) komandaları iştirak ediblər.

Komandalara seçim turunun keçirilməsi haqqında məlumat verilərək bildirilib ki, burada ən çox bal toplayan 4 komanda, II mərhələdə isə 3 komanda iştirak edəcək. Hər mərhələdə iştirakçılara 25 sual veriləcək və ən çox bal toplayan komandalar oyunun əsas turunda iştirak etmək hüququ qazanacaqlar. Əsas tur hər biri 5 nəfərdən ibarət olan 4 komanda arasında keçiriləcək və 3 mərhələdən ibarət olacaq. Birinci mərhələdə görkəmli bəstəkarların həyat və yaradıcılığı barədə, II mərhələdə musiqi əsərlərini dinləmə yolu ilə təyinetmə formatında, III mərhələdə isə şagirdlərə ümumi musiqi dünyagörüşünə dair suallar veriləcək. Hər sualın düzgün cavabı 100 balla qiymətləndiriləcək.

Maraqlı və gərgin keçən musiqili-intellektual oyunda musiqi məktəblərinin şagirdləri bəstəkarlarla bağlı sualları cavablandırmaqda fəallıq göstəriblər. Onlar görkəmli bəstəkarlar Üzeyir Hacıbəylinin, Qara Qarayevin əsərlərini dinləmə yolu ilə təyin ediblər, musiqinin ümumi-nəzəri məsələləri ilə bağlı sualları cavablandırıblar.

Bütün suallar cavablandırıldıqdan sonra ən yüksək bal toplamış komandalar mükafatlandırılıblar. "Simayi-Şəms" komandası I, "Aksent" komandası II, "Humayun" komandası III dərəcəli diploma layiq görülüb.

Əli RZAYEV


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 72